http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 04 (1601) 28 fevral 2015 - ci il Qiymәti 40 qәpik

# Azərbaycan Prezidenti İlham Əliyev Xocalı faciəsi qurbanlarının xatirəsini anma mərasimində iştirak edib




İyirmi üç il əvvəl - 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törədiblər.

Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 23-cü ildönümü ilə əlaqədar anma mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşmışdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev anma mərasimində iştirak edib.

Abidənin yanında fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsinə ehtiramını bildirdi.

Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Türkiyənin ölkəmizdə səfərdə olan xarici işlər naziri Mövlud Çavuşoğlu abidənin önünə gül dəstələri qoydular.

Mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkət rəhbərləri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri iştirak edirdilər.

Anma mərasiminin iştirakçıları abidənin önünə tər qızılgüllər, qərənfillər düzdülər.

## BU SAYIMIZDA



### XOCALI FACİƏSİ ANILDI

4



### BİRİNCİ AVROPA OYUNLARI ƏMƏLİYYAT KOMİTƏSİNİN MÜTƏXƏSSİSLƏRİ TƏLƏBƏLƏRLƏ GÖRÜŞÜBLƏR

3



### İ.İsayev: *"ATU-nun bu günkü maddi-texniki bazasının vəziyyəti innovativ elmi-tədqiqat işlərinin aparılmasına və rəqabət qabiliyyətli mütəxəssislərin hazırlanmasına tam imkan verir"*

2




### "Sabahın Alimlərinə" dəstək

### BÖYÜK ALİMİN XATİRƏ IŞIĞINDA

6

**Fevralın 23-də Böyük Elmi Şuranın növbəti yığıncağı keçirildi. Yığıncağı açan ATU-nun rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov gündəliyə keçməzdən öncə bildirdi ki, universitet rəhbərliyinin strukturunda müəyyən yerdəyişmələr olub. Prorektorlar Sabir Əliyev tədris işləri üzrə, İbrahim İsayev elmi işlər üzrə, Rafiq Məmmədhəsənov tərbiyə işləri üzrə, Natiq Xəlilov ümumi işlər üzrə, Aydın Vəliyev təsərrüfat işləri üzrə tutduqları vəzifədə qalıblar. Lakin müalicə işi və beynəlxalq əlaqələr üzrə prorektor, professor Əziz Əliyevin başqa işə keçməsi ilə əlaqədar beynəlxalq əlaqələr şöbəsinin müdiri Rəhimə Qabulova beynəlxalq əlaqələr və xarici tələbələrlə üş üzrə prorektor, Nadir Zeynalov isə beynəlxalq əlaqələr şöbəsinin müdiri vəzifəsinə təyin olunmuşdur. Səhiyyə nazirliyi ilə aparılan məsləhətləşmələrdən sonra qərara gəlinib ki, müalicə işləri üzrə prorektorluğa ehtiyac yoxdur. Klinika rəhbərlərinin öz işlərini mükəmməl idarə edə bildiklərindən müalicə işlərinin müstəqil şəkildə aparılması da onlara həvalə edilib.**

## BÖYÜK ELMİ ŞURADA

# 2014-cü il ərzində yerinə yetirilən elmi- tədqiqat işlərinin vəziyyəti və qarşıda duran vəzifələr müzakirə edilib



Ali Attestasiya Komissiyası tərəfindən şuraların təsdiq olunduğunu və onların da tərkibində bir sıra dəyişiliklər edildiyini söyləyən rektor, bəzi üzvlərin işə səhlənkarlığı və məsuliyyətsizliyinə görə iradların olduğunu bildirib. Şuralara tələbatın artdığını vurğulayan Ə. Əmiraslanov dedi ki, bura düşən insanlar bilməlidir ki, bu onlara göstərilən çox böyük etimaddır və onlar məsulliyyət daşıyırlar. Müdafiə şuralarının və problem komissiyalarının işi ilə bağlı tövsiyələrini şura üzvlərinin diqqətinə çatdıran rektor bir sıra jurnallarda dərc olunan məqalələrin səviyyəsinin aşağı olduğunu da qeyd edib.

Sonra universitetin elmi işlər üzrə prorektoru, professor İbrahim İsayev “Azərbaycan Tibb Universitetində 2014- cü il ərzində yerinə yetirilən elmi- tədqiqat işlərinin vəziyyəti və qarşıda duran vəzifələr” barədə geniş hesabat məruzəsi ilə çıxış edib.

Məruzəçi hesabatını əsasən statistik rəqəmlər üzərində quraraq paralellər apardı, göstəriciləri slaydlar vasitəsilə şura üzvlərinin nəzərinə çatdırdı.

Son illər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə elm və təhsilin inkişafı istiqamətində çoxsaylı uğurlara imza atıldığını önə çəkən natiq vurğuladı ki, ölkəmizin qarşıdakı illərdə inkişaf yollarını müəyyənləşdirən «Azərbaycan 2020 gələcəyə baxış» İnkişaf Konsepsiyasında elm və təhsilin qarşısında qoyulan mühüm vəzifələrdən və bu istiqamətdə görülən işlərdən söhbət açdı.

O, vurğuladı ki elmin məqsədi yeni biliklər əldə etməkdirsə, təhsilin vəzifəsi bu bilikləri insanlara çatdırmaqdır. Elm və təhsil vəhdət halında daim yeniləşir və inkişaf edir.

Sözünə davam edən İ.İsayev bildirdi ki, son illərdə yüksək ixtisaslı tibb kadrları hazırlayan Azərbaycan Tibb Universitetinin maddi-texniki bazası möhkəmlənmiş, Universitetin nəzdində Onkoloji, Stomatoloji, Tədris-Terapevtik və Tədris-Cərrahiyyə Klinikaları fəaliyyət göstərir. 2014-cü ildə Stomatoloji Klinikanın nəzdində yeni Stomatoloji Tədris Mərkəzi açılmışdır. Klinika tibb elminin ən son nailiyyətlərinə cavab verən müasir texnoloji avadanlıqlarla təchiz olunmuşdur ki, bu da tələbə və rezidentlərin nəzəri və praktik biliklərinin təkmilləşdirməkdə müstəsna əhəmiyyətə malikdir.

2014-cü ildə Universitetin beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi, yeni maliyyələşdirmə mexanizminin tətbiqi sahəsində islahatlar davam etdirilmiş, bu təhsil müəssisəsinin təhsil–tədqiqat–innovasiya mərkəzlərinə çevrilməsinə dəstək verən və rəqabət qabiliyyətli mütəxəssis hazırlığını təmin edən işlərə başlanmışdır.

Ali təhsil müəssisəsində aparılan elmi-tədqiqatlar müasir standartlar səviyyəsinə çatdırılması, elmin informasiya təminatının gücləndirilməsi, qrant maliyyələşdirilməsinin tətbiqi, beynəlxalq elmi əlaqələrin dərinləşdirilməsi sahəsində tədbirlər görülməkdədir.

Hesbat ili ərzində universitetimizin bir çox nailiyyətlər əldə etdiyini söyləyən məruzəçi AMEA-nın bu il keçirdiyi növbəti seçkilər zamanı 4 əməkdaşımızdan- bir nəfərin həqiqi, üç nəfərin isə müxbir üzvülüyə seçildiyini, ölkə rəhbərliyinin milli səhiyyə sisteminə xüsusi diqqət və qayğısı sahəsində Azərbaycan səhiyyəsinin inkişafındakı xidmətlərinə görə bir qrup universitet əməkdaşlarının fəxri adlara və xüsusi mükafatlara layiq görüldüyünü qeyd edi.

Bundan başqa ötən il elmin inkişafında mühüm nailiyyətlər əldə edən alimləri daha yüksək səviyyəli tədqiqatlara həvəsləndirmək və Azərbaycanda görkəmli alimlərin xatirəsini əbədiləşdirmək məqsədilə AMEA-da adlı mükafatlar təsis olunmuşdur. II cərrahi xəstəliklər kafedrasının müdiri akademik Böyükkişi Ağayev səhiyyənin və tibb elminin fundamental, tətbiqi sahələrinin inkişafındakı çoxillik xidmətlərinə və nailiyyətlərinə görə akademik Mirəsədulla Mirqasımov adına mükafata layiq görülmüşdür. Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının tibb sahəsində mühüm xidmətlərinə görə universitetin patoloji fiziologiya kafedrasının müdiri, professor Sabir Əliyev «İbn Sina» diplomu ilə təltif olunmuşdur.

Respublikamızın beynəlxalq miqyasda nüfuzunun artmasına və bunun nəticəsində universitetimizdə bir çox beynəlxalq konqres və konfransların, müxtəlif məzmunlu görüşlərin keçirildiyini söyləyən İbrahim İsayev hesabat məruzəsində qeyd etdi ki, 2014-cü ildə Azərbaycanda ilk dəfə keçirilən “Bakı Elm Festivalı”nda Universitetimizin əməkdaşlarının iştirakı elmimiz üçün böyük əhəmiyyət daşımaqla bərabər, gənc alimlərimizin elmi nailiyyətlərinin təbliğində və fəaliyyətlərinin stimullaşdırılmasında önəmli yer tutur. Hesabat ili ərzində ATU-nun elmi-pedaqoji



heyəti xarici ölkələrdə keçirilən 99 müxtəlif elmi konfrans, konqres və simpoziumlarda 155 əməkdaşı iştirak etmişdir (onlardan 35 çıxış, 23 poster məruzə, 7 həmsədr olmuşdur).

Alimi səciyyələndirən göstəricilərə diqqəti yönəldən natiq 2014-cü ildə aparılan elmi-tədqiqat işlərinin nəticələrini şərh edərək bildirib ki, bunlar 12 monoqrafiya və kitabda (1–xaricdə), 18 dərslikdə, 44 dərs vəsaitində, 5 kitabça və sorğu ədəbiyyatında, 3 elmi əsərlər məcmuəsində, 419 elmi iş xaricdə, 724 Respublikada, 32 metodik tövsiyyədə, 6 ixtiraya və 2 faydalı modelə Azərbaycan Resublikasının patentində, 9 müsbət qərarda (o cümlədən 1 xaricdə) öz əksini tapmışdır.

Başa çatmış elmi-tədqiqat işləri üzrə 7 elmlər doktoru və 39 fəlsəfə doktoru müdafiə edilmişdir.

2015-ci il yanvar ayının əvvəlinə olan məlumata əsasən Azərbaycan Tibb Universitetində ümumilikdə 1366 nəfər çalışır, onlardan 1244 professor-müəllim heyəti, həmçinin RTEA akademiki–4, RTEA-nın müxbir üzvü–1, AMEA həqiqi üzvü–4, Elmlər Akademiyasının müxbir üzvü–6, Dövlət mükafatı laureatı–4, ə.e.x.–29, əməkdar həkim–47, əməkdar müəllim – 41, fəxri bədən tərbiyəsi və idman işçisi – 3, əməkdar bədən tərbiyəsi və idman xadimi – 3, əməkdar əczaçı – 1, əməkdar jurnalist – 1, elmlər doktoru – 161, fəlsəfə doktoru –841, professor – 120, dosent – 331 nəfərdir.

ATU-nun beynəlxalq əlaqələrinin də günün tələbləri səviyyəsində qurulduğunu söyləyən prorektor hazırda bu təhsil və elm ocağının dünyanın nüfuzlu ali təhsil müəssisələri ilə sıx əməkdaşlıq etdiyini, bir sıra universitetlərlə fəal tələbə və mütəxəssis mübadiləsi apardığını deyib: “Universitet ali təhsil sahəsində Avropa İttifaqı, Mərkəzi və Şərqi Avropa ölkələri ilə Şərqi Asiya ölkələri arasında əməkdaşlıq üzrə TEMPUS TASİS proqramına görə Transavropa əməkdaşlığının üzvüdür.

ATU-nun beynəlxalq əlaqələri də günün tələbləri səviyyəsində qurulur. Hazırda bu təhsil və elm ocağı dünyanın 84-ə yaxın nüfuzlu ali təhsil müəssisəsi ilə sıx əməkdaşlıq edir, bir sıra universitetlərlə fəal tələbə və mütəxəssis mübadiləsi aparır.

Son üç ildə Azərbaycan Tibb Universitetində Avropa İttifaqının MUMEENA (Qonşu Şərqi Avropa Ölkələrində Tibb Təhsilinin Modernləşdirilməsi) layihəsi çərçivəsində tibb təhsilinin müasirləşməsi istiqamətində işlər aparılır.

Çıxışında Əsaslı kitabxananın fəaliyyətinə də toxunan prorektor dedi ki, Əsaslı kitabxanada elektron kitabxananın yaradılması işi hazırda mövcud beynəlxalq elektron nəşrlərinin oxuculara təqdim olunması formasında həyata keçirilir. Kitabxananın fondunda çoxlu sayda elektron materiallar mövcuddur. Lakin elektron kitabxananın yaradılmasında məqsəd olaraq alimlərimizin əsərlərinin elektron variantının fondumuzda mövcud olmamasıdır.

Azərbaycan tibb elmi bu gun dünya səviyyəsində bir inkişaf yolundadır. Hörmətli alimlərimizin kitabxanamızla əməkdaşlıq edərlərsə, həm milli, həm də xarici dildə elmi ədəbiyyatın daxil olduğu elektron kitabxana yarada bilərik.

Bundan başqa, elektron kitabxananın yaradılması üçün irihəcmli skanerin olması vacibdir. Onun vasitəsilə fondda olan unikal tibbi ədəbiyyat elektron kitabxana fonduna salına bilinər.

O, çıxışının sonunda xalqın sağlamlığının keşiyində dayanmaq kimi humanist bir vəzifə sahibi olduqlarını heç vaxt unutmayan Tibb Universiteti əməkdaşlarının bundan sonra da yorulmadan səhiyyənin inkişafına, yeni tibb mütəxəssislərinin hazırlanmasına öz töhfələrini verəcəklərinə əminliyini bildirib.

Müzakirələr zamanı çıxış edən professorlar Amalya Əyyubova, Qalib Qarayev, Gəray Gəraybəyli, Çingiz Rəhimov və Lalə Allahverdiyeva hesabatı qənaətbəxş qiymətləndirərək universitetin elmi potensialının yüksək olduğunu, aparılan işlərin istiqamətinin düzgün müəyyənləşdirildiyini söyləyiblər. Həllini gözləyən problemlərlə bağlı təkliflərini irəli sürən natiqlər yerli və beynəlxalq qrant layihələrində iştirakın vacibliyindən söz açıblar. Eyni zamanda elmi-tədqiqat işlərinin aparılması məqsədilə xarici ölkələrə ezam olunmuş əməkdaşların qayıtdıqdan sonra gördükləri işlər barədə hesabat vermələrini məqsədəuyğun hesab ediblər.

Məruzə və çıxışlarda səslənən fikirlərə yekun vuran Əhliman Əmiraslanov müzakirə olunan məsələnin vacibliyini önə çəkərək tədrislə elmi-tədqiqat işlərinin paralel aparılmasının zəruriliyindən danışıb: “Doğurdan da İbrahim müəllimin hesabatı üzündən oxunan standart bir məruzə deyildi, o geniş analizlər apararaq ətraflı məlumat verdi. Bu, o demək deyil ki, kafedra əməkdaşları bir il müddətində elmdə inqilab eləsin. İndi internet sistemi var, onlar heç olmasa dünyada baş verən elmi nailliyyətləri öyrənməlidir. Amma təəssüflər olsun, elə insanlar var ki, hesab edirlər dissertasiyanı müdafiə elədim daha mənə heç nə lazım deyil. Biz xarici jurnallara hər il nə qədər vəsait ayırırıq ki, əməkdaşlarımız onlardan faydalansınlar. Lakin kitabxanadan mənə məlumat verirlər ki, bir nəfər də olsun o jurnalları sifariş vermir. Universitetin hər bir əməkdaşı-kafedra müdirindən tutmuş professor və dosentinədək hamı bilməlidir ki, onlar pedaqoji işə yanaşı, paralel elmi–tədqiqatla da məşğul olmalıdır. Əgər hər hansı kafedrada bir il ərzində bir elmi iş yazılmayıbsa bu biabrçılıqdır. Mən həmişə deyirəm ki, biz ilk növbədə pedaqoq olmaqla bərabər, həm də elmi tədqiqatçıyıq. Kafedralarda işləyənlərin böyük əksəriyyəti elmi-tədqiqat işləri ilə məşğul olmalıdırlar. Ona görə də elmi tədrisdən ayırmaq mümkün deyil. Əgər bu gün kimsə elmi-tədqiqat aparmırsa, öz sahəsinin səviyyəsini yüksəltmirsə, burada yaxşı tədrisdən söhbət gedə bilməz.” Universitetin elmi-tədqiqat laboratoriyalarındakı mövcud vəziyyətdən söhbət açan rektor bu işləri yüksək səviyyədə aparmaq üçün xaricdən lazımi avadanlıqların və reaktivlərin alınması və gətirilməsi üçün xüsusi komissiyanın yaradıldığını bildirdi. Kafedraların etdiyi müraciəti həmin komissiyaya araşdıracaq və onun əsasında lazımi avadanlığı əldə edəcək. Rektor daha sonra qarşıda duran bir sıra görüləcək tədbirlərdən söhbət açdı, müxtəlif məsələlər barədə şura üzvlərini məlumatlandırdı.

Böyük Elmi Şura müsabiqə məsələlərini həll etməklə öz işini başa çatdırdı.

**MƏNSUR**

# BİRİNCİ AVROPA OYUNLARI ƏMƏLİYYAT KOMİTƏSİNİN MÜTƏXƏSSİSLƏRİ TƏLƏBƏLƏRLƏ GÖRÜŞÜBLƏR




***Fevralın 16-da ATU-nun Tədris Cərrahiyyə Klinikasında "Bakı-2015" Birinci Avropa Oyunları Əməliyyat Komitəsinin (BAOƏK) mütəxəssisləri tələbələrlə görüşüblər.***

ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Elşad Novruzovun təşəbbüsü ilə baş tutan tədbirdə çıxış edən universitetin tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev idman sahəsində ölkəmizin son illərdəki uğurlarının Birinci Avropa Oyunlarının Bakıda keçirilməsinə əsas verdiyini deyib.

Bu məsələnin həmişə ölkə rəhbərliyinin nəzarətində olduğunu bildirən prorektor Birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO VƏ İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın yarışların yüksək səviyyədə keçirilməsi üçün göstərdiyi dəstəyi xüsusi vurğulayıb. O, yeni tikilən və bərpa olunan idman kompleksləri, Olimpiya şəhərciyi, KİV-lər üçün nəzərdə tutulmuş media mərkəzinin yaradılmasından söz açaraq Birinci Avropa Oyunlarına hazırlıq işlərinin vüsətlə davam etdiyini diqqətə çatdırıb. Bununla əlaqədar gənclərimizlə görüşlərin təşkilini müsbət hal kimi qiymətləndirərək qeyd edib ki, artıq Olimpiya Oyunlarına bərabər tutulan Avropa Oyunlarının Azərbaycanda keçirilməsi ölkəmizə göstərilən ən böyük etimaddır.







S.Əliyev bu yarşlara ev sahibliyi etmək arzusunda olan ölkələr arasından Azərbaycanın seçilməsini son zamanlar idmançılarımızın istər Olimpiya oyunlarında, istərsə də Avropa və dünya çempionatlarında böyük uğurlara imza atması ilə əlaqələndirib. Ölkəmizdə belə möhtəşəm yarışlarların keçirilməsi üçün geniş imkanların mövcudluğunu dilə gətirən prorektor müəyyən qısqanclıqlara baxmayaraq Birinci Avropa Oyunlarının uğurla keçəcəyinə əminliyini ifadə edib.

"Bakı-2015" Birinci Avropa Oyunlarına həsr edilmiş video-çarx izlənildikdən sonra Birinci Avropa Oyunları Əməliyyat Komitəsinin məkanların idarə edilməsi mütəxəssisi Nəsimi Sadıqzadə bu mötəbər yarış barədə ətraflı məlumat verərək bildirib ki, bu ilin 12-28 iyununda ümumilikdə 20 idman növü üzrə Avropanın 50 ölkəsindən olan 5 mindən çox idmançı sülh, ədalət, dostluq və birlik prinsipləri əsasında yarışacaq.

Komitənin insan resusları üzrə mütəxəssisi Şirvani Qurbanova qurumun missiyasının ölkədə və onun hüdudlarından kənarda yenilikçi, təsiredici və həyəcanlı tədbir təşkil etmək, növbəti Avropa Oyunlarının təməlini qoymaq və yüksək standartların əsasını yaratmaq olduğunu diqqətə çatdırıb: "Vizyonumuz isə Bakının heyranedici mühitində yüksək səviyyəli idman yarışlarını təntənə ilə qeyd edən ilk Avropa Oyunlarını keçirmək və Azərbaycanı müasir və sürətlə inkişaf edən ölkə kimi tanıtmaqdır. Elçilərimiz azərbaycanlı, beynəlxalq və ulduz elçilərindən ibarətdir".

BAOƏK-in telekommunikasiya üzrə mütəxəssisi Elman Kərimli isə test oyunları haqqında danışaraq bu oyunların ölkəmizin gənc əhalisi üçün nəzərdə tutulduğunu söyləyib: "Dünya görsün ki, Azərbaycanın gənc nəsli idmana maraqlı və sağlamlığa meyillidir. Sağlamlıq deyiləndə isə ilk növbədə tibb yada düşür. İnsan həyatında olduğu kimi, yarışlarda da həkimlərin rolu böyükdür. Çünki hər bir bir idmançı həkimlərə güvənərək yarışa çıxır. Hər hansı bir burxulma, əzələ dartılması, zədələnmələr baş verərsə həkimə ehtiyac yaranır. Ona görə siz də bu komandanın bir hissəsi olacaqsız".

Test oyunlarının hazırlığın səviyyəsini nümayiş etdirən bir faktor olduğunu deyən mütəxəssis bildirib ki, başlıca məqsədimiz dünya ölkələrinin diqqətini Avropa Oyunlarına yönəltməkdir. O, test oyunlarında Tibb Universiteti tələbələrinə üstünlük verilməsinin önəminə də toxunaraq idman yarışlarında bir tibb komandasının fəaliyyət göstərdiyini xatırladıb. Yarış ərəfəsində dopinqin yoxlanılması, zədələrin aradan qaldırılması və idmançıların oyundan qabaq nəzarətdən keçirilməsində həkimlərin əvəzsiz rolunu yada salaraq tibb tələbələrini Azərbaycanı dəstəkləməyə və qələbəmiz naminə öz töhfələrini verməyə çağırıb.

Məlumat üçün bildirək ki, Avropa Oyunları Avropadakı bütün Milli Olimpiya Komitələrindən (MOK) olan atletlər üçün çoxsaylı idman növü üzrə keçiriləcək yarışdır və bu yarışlar hər dörd ildə bir dəfə baş tutacaq. Oyunlar Avropa Olimpiya Komitələri (AOK) tərəfindən aparılır, təşkil edilir və idarə olunur. Avropa Oyunları 2012-ci il dekabrın 8-də İtaliyanın paytaxtı Romada keçirilmiş AOK-un Baş Assambleyasında Avropadakı MOK-ların səs çoxluğu ilə təsis edilib. Bu yığıncaqda Oyunları keçirmək hüququ Azərbaycanın paytaxtı Bakı şəhərinə verilib.

Bakıda keçiriləcək Birinci Avropa Oyunlarından məsul olan Təşkilat Komitəsi Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə yaradılıb. Komitəyə Azərbaycanın birinci xanımı, Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva sədrlik edir. Bakı 2015 Birinci Avropa Oyunları Əməliyyat Komitəsi (BAOƏK) Təşkilat Komitəsi sədrinin qərarı ilə yaradılıb.

BAOƏK-in baş icraçı direktoru gənclər və idman naziri cənab Azad Rəhimov və baş əməliyyat direktoru cənab Saymon Kleqdir.

Həyəcanlandırıcı və innovativ yeni layihə olan Avropa Oyunları qitədə çoxsaylı idman növü üzrə keçirilən birinci ən böyük yarış olacaq. Avropa Komitələrinin bütün üzvləri yarışlarda iştirak etmək və mübarizə aparmaq üçün Azərbaycanın Xəzər dənizinin sahilində yerləşən paytaxtı Bakı şəhərinə dəvət olunublar. Açılış mərasimi cümə günü - 2015-ci il iyunun 12-də, bağlanış mərasimi isə bazar günü - 2015-ci il iyunun 28-də təntənəli surətdə qeyd olunacaq.

Bakı 2015 Avropa Oyunlarının Əməliyyat Komitəsi (BAOƏK) oyunların yüksək standartlara uyğun şəkildə planlaşdırmaq, sınaqdan keçirmək və icra etmək üçün bütün lazımi təcrübə və işçi qüvvəsini təmin etmək baxımından məsuliyyət daşıyır. Təşkilatın iş strukturu optimallaşdırılıb və görkəmli idman yarışlarını çox qısa planlaşdırma və sınaq müddətində həyata keçirməyə istiqamətləndirilib.

**A.KAMRANOĞLU**

# Cərrahiyyə Klinikansının Həmkarlar Təşkilatı təsis olundu

Cərrahiyyə Klinikasında Həmkarlar İttifaqı Komitəsinin (HİK) yerli təşkilatının yaradılması üçün təsis yığıncağı keçirilib. Yığıncaqda HİK-in sədri Cahangir Qasımov və komitə üzvləri iştirak edib. Yığıncaqda çıxış edən klinikanın direktoru Hacıqulu Bağırov yerli təşkilatın vacib olması ilə bağlı iştirakçıları məlumatlandırıb. Təşkilat səsvermə yolu ilə 11 nəfərdən ibarət formalaşıb. Sonra isə Mirəli Məcidov sədr, Seyfulla Cəfərov isə müavin seçiliblər. Təşkilatın işinə nəzarət etmək məqsədilə 3 nəfərdən ibarət Təftiş Komissiyası da təşkil olunub.

Sonda H.Bağırov və C.Qasımov yerli təşkilatın işinə uğurlar arzulayıb.

*Sabahın Alimləri*

**Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası əsasında fevralın 12-14-dək Heydər Əliyev Mərkəzində "Sabahın Alimləri" IV Respublika müsabiqəsi keçirilmişdir. Müsabiqə Təhsil, Gənclər və idman nazirlikləri, Heydər Əliyev Mərkəzi, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi və İntel İSEF-in birgə təşəbbüsü ilə baş tutub.**

# "Sabahın Alimlərinə" dəstək

Müsabiqənin əsas məqsədi yuxarı sinif şagirdlərində müasir düşüncə tərzinin formalaşdırılması, onların idarəetmə və tədqiqatyönlü fəaliyyətə cəlb edilməsi, o cümlədən gənclərə elmi təfəkkür tərzi və tədqiqatçılıq vərdişlərini aşılamaqdan ibarət olmuşdur.



"Sabahın Alimləri" IV Respublika müsabiqəsində 204 şagird 106 elmi layihə ilə iştirak edib. Onların 39-u fərdi, 67- si kollektiv layihə olmuşdur. Müsabiqəyə Bakı şəhəri ilə yanaşı, bölgələrin ümumtəhsil məktəblərinin şagirdləri də layihələr təqdim etmişlər.

Müsabiqəyə təqdim olunan layihələr münsiflər heyəti tərəfindən səkkiz nominasiya üzrə qiymətləndirilib, nəticədə 47 layihə I, II və III yerlərə layiq görülüb.

Bu maraqlı müsabiqəyə Azərbaycan Tibb Universitetinin alimləri də qoşulmuşdur. Belə ki, Bakı şəhəri, Yasamal rayonunun 60 saylı məktəbinin rəhbərliyi Azərbaycan Tibb Universitetinin rəhbərliyinə müraciət edərək Elmi Tədqiqat Mərkəzində hazırlanmış "Depresiya əleyhinə fitokompazisiya" mövzusunda elmi-tədqiqat işinin müsabiqəyə hazırlanmasında köməklik istəmişlər. Bununla əlaqədar olaraq Elmi Tədqiqat Mərkəzinin direktoru, ə.e.x., professor Qalib Qarayev öz tərəfindən farmakologiya şöbəsinin müdiri, professor Ramiz Axundova təqdim olunan mövzunu şagirdlərin iştirakı ilə araşdırmağı xahiş etmişdir.

Professor Ramiz Axundov ilk növbədə şagirdləri laboratoriya avadanlıqları və təcrübə heyvanlarına qulluq qaydaları ilə tanış etməklə, mövzuya aid ədəbiyyat məlumatlarının toplanılmasında şagirdlərə qiymətli məsləhətlər verdi. Aparılan elmi tədqiqat işlərinin nəticəsində "Azadepressin" fitokompazisiyanın heyvanlarda bəzi davranış effektləri araşdırıldı. Müəyyən olundu ki, "Azadepressin" heyvanların ümumi əhval-ruhiyyəsini yaxşılaşdırır, davranışı fəallaşdırır və yorğunluğu aradan qaldırır.

Fevralın 14-də Heydər Əliyev Mərkəzində müsabiqənin qaliblərinin mükafatlandırılması mərasimi olmuşdur. Aparılan elmi tədqiqat işlərinin nəticələri "Sabahın Alimləri" IV Respublika müsabiqəsinə təqdim olundu və üç gün müddətində davam edən müsabiqədə Yasamal rayonunun 60 saylı məktəbinin 9-10-cu sinif şagirdlərindən Atabəyli Məlik, Həsənova Maya və Həsənli Lalə müsabiqədə münsiflər heyəti tərəfindən yüksək qiymətləndirilərək 2-ci yerə (gümüş medala və sertifikatlara) layiq görülüblər. Belə müvəffəqiyyətin qazanılmasında həmin məktəbin direktorunun və biologiya müəllimsi Rəhimova Səfurə xanımın fəaliyyəti və xüsusi rolu danılmazdır.

Azərbaycan Tibb Universitetinin əməkdaşları bundan sonra da gələcəkdə bu istiqamətdə fəaliyyətlərini davam etdirən gənc alimlərə tədqiqat işlərini aparılması üçün lazım olan şəraitin yaradılmasında öz köməyini əsirgəməyəcək.

Kollektiv müsabiqədə iştirak edən bütün şagirdlərə bu şərəfli işdə uğurlar arzulayır.

**Şimid QASIMOV,**
*ETM-in bioloji fəal maddələrin sintezi şöbəsinin baş elmi işçisi, dosent*

**Fevralın 25-də Azərbaycan Tibb Universitetində Xocalı Soyqırımının 23-cü ildönümü münasibəti ilə tədbir keçirildi. Tədbiri ATU-nun rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov açdı. Xocali faciəsi qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad ediləndən sonra Əhliman müəllim bu qətliamın hər il ənənəvi olaraq onun rəhbərlik etdiyi universitetdə qeyd edildiyini bildirdi.**

# XOCALI FACİƏSİ ANILDI

## Ermənilərin bəşər tarixində görünməmiş vəhşilikləri xatırlandı




Qeyd etdi ki, soyqırım 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri və keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının iştirakı ilə törədilib: “Xocalı sakinlərindən 613-ü qətlə yetirilib. Onlardan 63-ü uşaq, 106-sı qadın, 70-i yaşlı olub. Təsəvvür edirsinizmi, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Düşmən gülləsinə tuş gələn və yaralanan 487 nəfərdən 76-sı uşaq olub. 1275 nəfər əsir, 150 nəfər isə itkin düşübdür.

Bilirsiniz ki, bu günədək erməni diasporu qondarma soyqırımı ilə bağlı ədəbiyyatlar nəşr etdirib. Ermənilər əvvəl soyqırıma məruz qalanların 300 min olduğunu yazırdılar. İndi bu rəqəmin 1,2 milyon olduğunu deyirlər. Baxmayaraq ki, Türkiyə tərəfi dəfələrlə təklif edib ki, arxivlər açılsın, amma erməni tərəfi buna razı olmayıb. Çünki əllərində soyqırımı təsdiq edən heç bir sənəd yoxdur. Avropanın bir çox ölkələri, Amerikanın müəyyən ştatları, Baltikyanı ölkələr Xocalı soyqırımını tanıyıb. Amma təəssüf ki, hələ də bu faciənin tanınmasında ikili standartlar müşahidə olunur. Hələ də bir sıra ölkələr bu hadisəni, bu soyqırımı tanımır. Ona görə harada yaşamağımızdan və fəaliyyət göstərməyimizdən asılı olmayaraq, bizim ən ümdə vəzifəmiz bu faciəni dünya ictimaiyyətinin diqqətinə çatdırmaqdır”-deyən rektor bu faciənin, soyqırımın xalqımızın tarixində ən qəddar, ən qanlı hadisələrdən biri olduğunu və bunu xalqımızın heç vaxt unutmayacağını vurğuladı.

Gənclərə də öz tövsiyələrini verdi. Xatırlatdı ki, Azərbaycan gəncliyi bu rəqəmlərə diqqət yetirməli, ermənilərin onların babalarının, nənələrinin başına gətirdiyi faciələri, onların necə qətlə yetirildiyini unutmasın. Sonra universitetin prorektoru, millət vəkili, professor Rafiq Məmmədhəsənov çıxış etdi. O, öz çıxışında Hitler Almaniyasının Sovet İttifaqı ilə müharibə apardığı dövrdə uşaqlara, qocalara, qadınlara toxunulmadığını, onlara mərhəmət göstərildiyini qeyd etdi: “Amma ermənilər o qədər qaniçən oldular ki, qocaları, uşaqları qətlə yetirməklə kifayətlənməyib, meyitlərin dərisini belə soydular. Bu, ermənilərin bəşər tarixində insanlıqdan uzaq, görünməmiş vəhşiliyi idi. Xocalı faciəsinə siyasi qiymət yalnız mərhum prezidentimiz Heydər Əliyevin hakimiyyəti dövründə verildi. İndi isə cənab prezident İlham Əliyevin əzmkarlığı və təşəbbüsü sayəsində Xocalı faciəsi ilə dünya ictimaiyyətinə ətraflı məlumat verilib. Hazırda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva bu faciəni “Xocalıya ədalət” şüarı ilə erməni xislətinin nə qədər qaniçən və vəhşi olduğunu dünyanın diqqətinə çatdırır”. ATU-nun insan anatomiyası kafedrasının professoru, Xocalı sakini Mübariz Allahverdiyev də şahidlik etdiyi faciəni ürək ağrısı ilə xatırladı. Xocalının ötən əsr ərzində rusların dəstəyi ilə ermənilər tərəfindən bir neçə dəfə soyqırıma məruz qaldığını bildirdi. 1905-1907, 1918-1920-ci illərdə Xocalının yerlə yeksan edildiyini qeyd edən Mübariz müəllim 1992-ci ildə törədilən faciənin xalqımızın qəlbində, yaddaşında sağalmaz iz buraxdığını diqqətə çatdırdı. Natiq sonra Qarabağın Naxçıvanik kəndində həkim işlədiyini, fəaliyyəti dövründə neçə erməni övladlarının həyatını xilas etdiyini, amma bunun müqabilinə həmin ermənilərin uşaqlara, qocalara, xəstələrə baxmadan xocalıları süngüdən keçirdiyini xatırladı: “ Qarabağda erməni-azərbaycanlı davası 1966-cı ildə də ola bilərdi. Həmin il iyulun 7-də ermənilər Xankəndində 3 azərbaycanlının başını kəsərək Ermənistana göndərmiş və od vurub yandırmışdılar. O zaman bunun qarşısını DTK-da çalışan ulu öndər Heydər Əliyev aldı. Qətli törədən erməniləri həbs etdirərək proseslərin geniş miqyas almasına imkan verm ədi”.

I daxili xəstəliklər və reanimotologiya kafedrasının dosenti, Kəlbəcərdən məcburi köçkün Nağdəli Zamanov da Xocalı faciəsindən danışaraq bildirdi ki, bu gün xalqımızın qan və can yaddaşının silkələndiyi gündür. Erməni vəhşiliyi və vandalizmi barədə söhbət açan natiq, faktlarla onların xalqımızın başına gətirdiyi fəlakətlərdən bəhs etdi. Bu barədə xeyli məqalələrin, əsərlərin yazıldığını diqqətə çatdırdı. Onlardan əməkdar jurnalist, şair-publisist Eldar İsmayılın “Göyçənin qisası qalır”, AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun əməkdaşı Zaur Əliyevin “Xocalı soyqırımı beynəlxalq cinayət kimi”, Qənirə Paşayeva və Həvva Məmmədovanın həmmüəllifliyi ilə “ Xocalı soyqırımı: şahidlərin dili ilə” və başqa əsərləri misal gətirdi.

Sonra mikrobiologiya və immunologiya kafedrasının dosenti, Xocalıdan məcburi köçkün Səidə Zeynalova faciəyə şahidlik etdi. Ömrünün ən və xoş çağlarının Xocalıda keçdiyini deyən Səidə xanım o dəhşətli gecəni ürəkağrısı ilə xatırlayaraq soyqırımı günü xəstə anasını Bakıya gətirmək üçün Ağdamda olduğunu bildirdi. Sonra şahid olduqlarını belə təsvir etdi: “Ağdam tezdən tükürpədici insan səslərinə, hayqırtılarına oyanmışdı. Bu səsə atam küçəyə çıxdı. Amma ağlaya-ağlaya geri qayıtdı. Səbəbini soruşduq. Dedi ki, ay bala, Qüdrət müəllimi gördüm, “qızlarımın meyitini meşədə görənlər məni muştuluqlasın”-deyə küçədə haray çəkirdi”. Səidə xanım soyqırımı törədənlərin, cinayət əməllərinin başında duran Robert Koçaryan və Serj Sarkisyanın cəzalarına çatacağına və işğal altında olan torpaqlarımızın azad olunacağına əminliyini bildirdi.

Sonra valideynləri Zəngilandan məcburi köçkün olan I müalicə-profilaktika fakültəsinin tələbəsi Sevinc Abbasova çıxış etdi. Bildirdi ki, Xocalı faciəsi qədər yaşım olmasa da, bu faciənin dəhşətli anlarını mərhum tele-jurnalist Çingiz Mustafayevin lentə aldığı video görüntü, oxuduğum məqalələr, müsahibələr vasitəsi ilə yaxşı təsəvvür edirəm. Hər birimizin və o cümlədən biz gənclərin üzərinə bu faciəni tanıtmaq, insanlarda vətənpərvərlik, düşmənə nifrət hissini aşılamaq vəzifəsi düşür”-deyən natiq “bu qisası yerdə qoymamalıyıq!” sözləri ilə fikrini tamamladı.

Sonda Əhliman müəllim tədbiri bağlı elan edərək Xocalı və 20 Yanvar faciəsinə məhz ulu öndər Heydər Əliyevin hakimiyyəti dövründə təkcə siyasi deyil, həm də hüquqi qiymət verildiyini tədbir iştirakçılarının diqqətinə çatdırdı.





**Qabil ABDULLAYEV**

Fotolar Cənnətalı Çingizindir

# Həmkarlar İttifaqı Komitəsi Xocalı faciəsi ilə bağlı tədbir keçirdi

**Fevralın 25-də ATU-nun Həmkarlar İttifaqı Komitəsinin (HİK) təşəbbüsü ilə Xocalı faciəsinin 23-cü ildönümü ilə əlaqədar Cərrahiyyə Klinikasında tədbir keçirilib.**

Tədbiri klinikanın direktoru, dosent Hacıqulu Bağırov açıb. Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra H.Bağırov erməni vandalizmi və soyqırımla bağlı iştirakçılara geniş şəkildə məlumat verərək şahidi olduğu hallarla bağlı fikirlərini söyləyib: “Azərbaycan xalqının qan yaddaşına, can yaddaşına hopmuş Xocalı faciəsindən 23 il ötür. Baxıram, zalda əyləşənlərin





əksəriyyəti gənclərdir. Onlar bu faciə ilə bağlı televiziyalar və mətbuat vasitəsi ilə məlumata malikdirlər. Amma mən bu faciəni gözlərimlə görmüşəm. Soyqırım zamanı güllə yarası alanların böyük bir qismi Təcili Tibbi Yardım Xəstəxanasında mən və həmkarlarım tərəfindən müalicə olundular. Yaralıların bir qisminə kömək göstərə bilsək də, sağlamlıqlarını tam bərpa edə bilmədik. Dinc, silahsız insanların vəhşiliklə qətlə yetirilməsini sözlə ifadə etmək mənim üçün çox çətindir. Bizim heç birimiz bu faciəni unutmamalıyıq.” –deyərək sözlərini tamamladı.

Sonra HİK-in sədri, dosent Cahangir Qasımov çıxış etdi.

Cahangir müəllim də faciənin dəhşətlərindən danışdı və gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunmasına diqqətin artırılmasına toxundu. Çıxışı zamanı bəlli oldu ki, demə, Xocalı faciəsinə şahidlik edənlərdən biri də natiqin özü olub: “Bəlkə də bu universitetdə yeganə şəxsəm ki, Xocalı soyqırımının bilavasitə iştirakçısı olmuşam. Əslən Xocalıdan deyiləm. Amma Xocalı hadisəsi baş verəndə mən Azərbaycan Tibb Universitetinin II kurs tələbəsi idim. Biz 9 nəfər tələbə fevralın 27-də sübh tezdən Ağdamda olduq. Naxçıvanikdə çoxlu meyitlərin qaldığını dedilər. Tələbə dostumuz Eldarın atasının da meyiti onların arasında idi. Biz onun meyitini çıxartmaq üçün Naxçıvanika getdik.

Orada dəhşətli mənzərənin şahidi olduq. İnsanların vəhşiliklə o cür qətlə yetirilməsini bəlkə də tarix heç vaxt görməyib və bundan sonra da görməyəcəkdir. Bu qisas heç vaxt yerdə qalmamalıdır”.

Hesab edirəm ki, “qanı qanla yumaq lazımdır” deyən Cahangir müəllim Xocalı, Qarabağ, Türk dünyası şəhidlərinə Allahdan rəhmət dilədi.

Sonda natiq möhtərəm prezident İlham Əliyevin rəhbərliyi ilə işğal olunmuş torpaqların geri qaytarılacağına, qarabağlıların, o cümlədən də xocalıların dədə-baba yurdlarına dönəcəklərinə ümidli olduğunu da bildirdi.

**Q.ABDULLAYEV**

**Xocalıya ədalət**



Eldar İSMAYIL

## XOCALININ DƏRDİ HARAY...

Ulu tanrı, hardan gəldi bəd xəbər?
Bəd xəbərə ürək dözsün nə qədər?
İç dünyamdan bir ah qopdu bu səhər,
Xocalının dərdi haray, ay haray!

Bu milləti qırdıran kim, qıran kim?
İgidləri kürəyindən vuran kim?
Bilinmirsə kim müttəhim, kim hakim...
Xocalının dərdi haray, ay haray!

Dağı-daşı sac içində qovruldu,
Böyük-kiçik tank altında qırıldı.
Xocalının külü göyə sovruldu...
Xocalının dərdi haray, ay haray!

Nə qocası, nə cavanı seçildi,
Qadınların qızıl qanı içildi.
Körpələri xəzəl kimi biçildi,
Xocalının dərdi haray, ay haray!

Bədən getdi, qol dorğandı, baş dindi,
Göz ovuldu, göy ağladı, yaş dindi.
Torpaq yandı, yurd dağıldı, daş dindi...
Xocalının dərdi haray, ay haray!

Zülmü görüb zaman təzdən qocaldı,
Xatın kəndi bu vəhşətə mat qaldı.
Öz dərdini unudaraq ün saldı-
Xocalının dərdi haray, ay haray!

Aman Allah, tufana bax, tufana,
Şəhər zülmət, toz qarışıb dumana...
Saçın yolub dad eləyir hər ana,
Xocalının dərdi haray, ay haray!

Belə sərgi sərməmişdi bu dünya,
Belə dövran sürməmişdi bu dünya,
Belə qırğın görməmişdi bu dünya!
Xocalının dərdi haray, ay haray!

Qayasına mən başımı qoyaram,
Torpağını al qanımla boyaram.
Dünya boyu sızıldayar bu yaram...
Xocalının dərdi haray, ay haray!

Xocalının dərdi bizə qalx! -deyir.
Düşmənləri süngüsünə tax! -deyir.
Qılıncını nərə çəkib çax! -deyir.
Xocalının dərdi haray, ay haray!

Bu harayda Allah eşqi olmalı!
Axan qanlar qan yaddaşı qalmalı!
Bu qisası əzəl-axır almalı!
Xocalının dərdi haray, ay haray!
İnsanların mərdi haray, ay haray!

**1992**

# İranlı Tələbələrin Elmi-mədəni Birliyi Xocalı faciəsinin 23-cü ildönümü ilə əlaqədar bəyanat yayıblar

**Biz Azərbaycanda təhsil alan iranlı tələbələrin elmi-mədəni birliyi olaraq Xocalı faciəsinin 23-cü ildönümü ilə əlaqədar bildiririk:**

Ermənistanın Azərbaycana qarşı işğalçılıq və soyqırımı siyasətinin tərkib hissəsi olan, beynəlxalq hüququn norma və prinsiplərinin, insan hüquq və azadlıqlarının kütləvi şəkildə, kobudcasına pozulması ilə nəticələnən Xocalı soyqırımı erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı uzun müddət davam edən etnik təmizləmə və soyqırımı siyasətinin daha bir dəhşətli nümunəsidir.

Beynəlxalq hüquqa əsasən, genosid ən ağır cinayətlərdəndir: Lakin təəssüf ki, Azərbaycanda dinc əhaliyə qarşı belə dəhşətli soyqırımı aktları həyata keçirilməsinə baxmayaraq, bu faktlar, o cümlədən Xocalı soyqırımı beynəlxalq aləmdə hələ də öz qiymətini almayıb.

İkili standartlara yol vermədən, beynəlxalq hüquq norma və prinsiplərinə uyğun olaraq, bu hadisə xüsusi beynəlxalq komissiya tərəfindən araşdırılmalı, səlahiyyətli beynəlxalq qurumlar tərəfindən genosid aktı kimi tanınmalı, cinayət törədənlərə qarşı sanksiyalar tətbiq edilməlidir: “Nüfuzlu beynəlxalq qurumları birmənalı mövqe nümayiş etdirərək, bir daha bu soyqırımı pisləməyə, onu törədənlərin layiq olduqları cəzanı tezliklə alması üçün səyləri artırmağa çağırırıq.

Bir daha bəyan edirik ki, Ermənistan münaqişə ilə bağlı qəbul edilmiş beynəlxalq sənədlərin müddəalarını yerinə yetirməli, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalı, azərbaycanlı əsir və girovlar azad edilməli, qaçqın və məcburi köçkünlərin pozulmuş hüquqları bərpa olunmalı, onlar öz doğma yurdlarına qayıtmalı, günahsız, dinc insanları məhv edən cinayətkarlar tezliklə ədalət məhkəməsi qarşısında cavab verməli və cəzalandırılmalıdır”.

İranlı tələbələrin fikrincə, artıq 23 ildir dünya, o cümlədən İran xalqı




Xocalı faciəsini Azərbaycan xalqı ilə birgə qeyd edir, konfranslar, tədbirlər, sərgilər təşkil etməklə Azərbaycanla həmdərd olduqlarını nümayiş etdirir. “Biz iranlı tələbələrin Azərbaycandakı birliyi olaraq Xocalı faciəsinin xatirəsini dərin ehtiramla yad edib və bəşəriyyətə qarşı törədilən hər növ cinayəti pisləyirik.

**Allah bütün şəhidlərimizə rəhmət eləsin!**

**◆ Fevralın 20-də ATU-nun ictimai fənlər kafedrasında mərhum alim-filosof, professor Qurban Bayramovun anadan olmasının 80 illiyinə həsr olunmuş elmi konfrans keçirildi. Konfransı giriş sözü ilə açan universitetin tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev Qurban müəllimin xatirəsini həmişə əziz tutan insanları salamlayaraq qeyd etdi ki, ölkəmizdə ulu öndərin qoyduğu gözəl bir ənənə var. Həmişə xalqımız, millətimiz, elmimiz, təhsilimiz, səhiyyəmiz qarşısında böyük xidmətləri olan insanların xatirəsi anılır, yubileyləri keçirilir. Bu ənənə universitetimizdə də daim qorunur. Hörmətli rektorumuz universitetimizdə böyük nüfuz qazanmış müəllim və professorlarımızın yubiley mərasimlərinin keçirilməsinə xüsusi diqqət yetirir.**

# BÖYÜK ALİMİN XATİRƏ İŞIĞINDA

Bu gün 80 illik yubileyinə toplaşdığımız Qurban Bayramovun da məhz belə şəxslərdən biri olduğunu, sadəliyi, insanpərvərliyi, tələbələrə, bütövlükdə insanlara olan sevgisi ilə seçildiyini deyən prorektor işıqlı xatirələrini də tədbir iştirakçıları ilə bölüşdü: "Təsadüf elə gətirdi ki, 1963-1964-cü tədris ilində Qurban müəllim Tibb İnstitutunda ilk dəfə bizim qrupa gəldi. Cavan, nurlu bir adam girdi auditoriyaya. Dərsə başlayan kimi gördük ki, qeyri-adi bir müəllimdir. Tələbələrə münasibəti də indiyədək bizə dərs keçən müəllimlərin çoxundan fərqlənirdi. Sinif nümayəndəsi olduğum 62-ci qrup isə bir qədər narahat qrup sayılırdı. Çox vaxt özünü təkəbbürlü aparan müəllimləri qəbul eləmirdik. Amma 3-4 dərsdən sonra Qurban müəllimə o qədər böyük sevgi, məhəbbət yarandı ki, hətta başqa qrupların tələbələri də onlara Qurban müəllimin dərs deməsini istəyirdilər. Getgedə bu nüfuz, bu hörmət ictimailəşdi.

Həm də öyrəndim ki, Qurban müəllim Göyçə mahalındandır. Tanışlığımız və xoş münasibətlərimiz həmin dövrdən başladı. Tərəddüdsüz deyə bilərəm ki, həmin tarixi dövrü Azərbaycan Tibb Universitetinin intibah dövrü də adlandırmaq olar. Düşünürəm ki, fikrimi əsaslandırmaq üçün Mustafa bəy və İbrahim bəy Topçubaşovlar, Cahangir Abdullayev, Cəlil Hüseynov, Zülfüqar Məmmədov, Əhəd Həsənov, Kamil Balakişiyev, Faiq bəy və Emin bəy Əfəndiyevlər, Adil Nəcəfov kimi akademik və professorların adlarını çəkmək kifayətdir".

Belə şəxsiyyətlər arasında böyük nüfuz qazanmağın nə qədər çətin olduğunu söyləyən S.Əliyev həmin elm fədailərinin Qurban Bayramova necə sonsuz sevgi, qayğı və diqqətlə yanaşdıqlarını da yada saldı. Ömründə heç kəsi incitməyən, yersiz bir ifadə işlətməyən Qurban müəllimin elmi fəaliyyətini və təşkilatçılıq bacarığını da yüksək qiymətləndirən prorektor onun böyük nüfuz sahibi professor Adil Nəcəfovdan sonra fəlsəfə kafedrasına uğurla rəhbərlik etməsini, kollektivdə mehriban bir mühit yaratmasını xüsusi vurğuladı.

Böyük filosoflar Firudin Köçərli, Tofiq Köçərli, İzzət Rüstəmov, Cəmil Əhmədli və digər tanınmış alimlərimizin də Qurban müəllim haqqında yüksək fikirdə olduqlarını xatırladan S.Əliyev cəmi 61 il ömür sürən dəyərli alimin onu tanıyanların yaddaşında daim yaşayacağını dedi. Qurban Bayramovu eyni zamanda gözəl ailə başçısı kimi də xarakterizə edərək bugünkü yubiley tədbirini onun xatirəsinə layiq ehtiram kimi dəyərləndirdi və sözü ictimai fənlər kafedrasının müdiri, professor Qoşqar Əliyevə verdi.

İnsan həyatını sonu görünməyən bir məkana, ömrü isə bu məkanda alovlanıb şölələnən məkandaxili əlamətə bənzədən Q.Əliyev bildirdi ki, hər bir insan bu məkanda öz ömrünü, Tanrının ona verdiyi qisməti yaşayır. Özündən sonra böyük bir irs də qoyub gedə bilər, boşluq da yarada bilər. O insan xoşbəxtdir ki, özündən sonra bir iz qoyur. Belə insanlardan biri də bu gün böyük hörmətlə xatirə yubileyini keçirdiyimiz Qurban Balı oğlu Bayramovdur: "Qurban müəllim Azərbaycan Tibb Universitetində işlədiyi müddətdə istər pedaqoji fəaliyyəti, istər elmi fəaliyyəti, istərsə də ictimai fəaliyyəti ilə onu tanıyanların qəlbində özünün çox böyük əbədi heykəlini ucaltmışdır. Qurban müəllim insanlığın ən yüksək səviyyəsində duran bir insandır desək səhv etmərik. Qurban müəllimin rəhbərliyi altında uzun illər Tibb Universitetində çalışdığımdan onun əxlaqı, mənəviyyatı, ədəb-ərkanı, insanlara ünsiyyəti gözümün qarşısındadır. Yazdığı əsərlər təkcə sovet dövrü baxımından deyil, bu gün də aktuallığını itirməyən problemlərə həsr olunmuş əsərlərdir".

Q.Əliyev gənclərimizin bu əsərlərə müraciət edərək insanın fəaliyyətinə, dialektikasının açılmasına dair dəyərli məsləhətlərdən, tövsiyələrdən bəhrələnməsinin vacibliyinə də toxundu. Bildirdi ki, "Təvazökarlıq fağırlıq, yazıqlıq deyil. Təvazökarlıq vüqarlılıqdır, ululuqdur, comərdlikdir. İnsan özünü dərk edəndən sonra təvazökar ola bilər"-deyən Qurban Bayramovun bütün əsərləri həm də bir halallıq nümunəsi olduğu üçün öz tarixi əhəmiyyətini itirmir. Qurban müəllimin elmi fəaliyyətində 3 istiqamət əsas götürülməlidir. Birincisi sırf elmi, fəlsəfi, ikincisi bilavasitə insanla bağlı olan problemlərdir. Üçüncü istiqamət isə onun xatirələridir.

Çıxışının sonunda həyatı boyu saflıq, əməksevərlik, insansevərlik mücəssəməsi olan, cəmiyyətimiz tərəfindən birmənalı qəbul edilən, hamı tərəfindən sevilən Qurban müəllimin əziz xatirəsinin onu sevənlərin qəlbində daim yaşayacağını söylədi.

ATU-nun Tədris Terapevtik Klinikasının direktoru, professor Surxay Musayev 19 ildən sonra da Qurban müəllim haqqında keçmiş zamanda danışmağın çətin olduğunu dedi: "Burada deyildiyi kimi, əgər əcəl macal versəydi bu gün biz o nurlu insanın, alimin yubileyini öz sağlığında qeyd edərdik. Amma həyatdır, hər kəsin bir ömür payı var. Görünür, Qurban müəllimin də ömür payı bu qədərmiş. Bu qısa ömürdə görün nələr etdi, nələr yaratdı, kimləri yetişdirdi və özündən sonra necə iz qoyub getdi".

Qurban Bayramovla ilk tanışlığının qısa tarixçəsinə nəzər salan Surxay müəllim diqqəti onun çox sadə bir həyat sürməsinə yönəltdi: " O zaman I kursda oxuyurdum, hələ fəlsəfə də keçmirdim. Tələbələrimizin böyük əksəriyyəti kimi mən də bu ətrafda kirayədə qalırdım. Həmişə bizimlə bərabər çox səliqəli geyinmiş, əsil müəllim simalı bir



nəfər də instituta gəlirdi. Bir gün elə oldu ki, tramvaydan bir düşdük. Tibb İnstitutunda oxumağımla, işlərimin necə getməsi ilə maraqlandı. Söhbət eləyə-eləyə gəldik instituta. Bildim ki, institutun müəllimidir. Bundan sonra səmimi görüşməyə başladıq. Fikirləşirdim ki, bu boyda institutun müəllimidir, maşını olar, filan. Yeni sadə bir həyat keçirirdi. Heç sadə həyat tərzindən çəkinmirdi də.

Sonralar müəllim-tələbə münasibətlərimiz birgə əməkdaşlıq səviyyəsinə yüksəldi. Mən komsomolda işləyəndə Qurban müəllim elə bir kafedrada çalışırdı ki, partiya, komsomol təşkilatlarının fəaliyyəti bu kafedrasız və bu kafedrada çalışan əməkdaşlarsız mümkün deyildi. Qurban müəllim həmişə öndə olan, öz sözünü deyən, ləyaqətini, mənəviyyatını gözləyən bir insan kimi fərqlənirdi. İstər gənclərlə işlədiyim, istərsə də partiya təşkilatına rəhbərlik etdiyim dövrdə bir tələbənin, bir müəllimin Qurban müəllim haqqında hansısa mənfi fikir söyləməsini eşitmədim. Hamı onun xeyirxahlığından danışırdı. Nəyəsə etirazını da qəribə bir üsyankarlıqla çatdırardı: "... belə olmaz axı!". Heç kəsə ziyanı dəyməz, kimsənin qəlbinə toxunan bir söz deməzdi".

Özündən sonra xeyir əməllər, layiqli övladlar qoyub gedən Qurban müəllimin unudulmaz şəxsiyyətlər cərgəsində özünəməxsus yer tutduğunu söyləyən S.Musayev bugünkü xatirə yubileyinin təşkilinə görə universitet rəhbərliyinə və ictimai fənlər kafedrasının kollektivinə təşəkkürünü bildirdi.

AMEA-nın müxbir üzvü, I cərrahi xəstəliklər kafedrasının müdiri, professor Nuru Bayramov Qurban müəllimin həm qohumu, həm tələbəsi olmaqdan qürur duyduğunu deyərək dünya şöhrətli qırğız yazıçısı Çingiz Aytmatovun "yaxşı insanlar olmasa cəmiyyət çökər" fikrini yada saldı. Əlavə etdi ki, belə adamlar az olsa da, o qədər güclü olurlar ki, cəmiyyətin mənəviyyatca pozulmasının, məhv olmasının qarşısını almağı bacarırlar. Belə insanlardan biri də bu gün yubileyinə yığışdığımız Qurban müəllimdir. O, bir mənəviyyat insanı, insanlıq simvolu idi. Təkcə fəaliyyət göstərdiyi universitet cameəsində yox, ailədə də, cəmiyyətdə də, doğulduğu, boya-başa çatdığı Göyçə mahalında da belə idi. "Xarakteri qazanmaq asan, qoruyub saxlamaq çətindir" deyiblər. Amma bütün çətinliklərə baxmayaraq o öz müsbət xarakterini heç zaman, heç bir şəraitdə dəyişmədi. Mövlanənin təbirincə desək, "həmişə göründüyü kimi oldu, olduğu kimi göründü".



N.Bayramov Qurban müəllimin özünəməxsus zarafatlarını da xatırlayaraq xeyalən ötən illərə qayıtdı: "Mən II kursda oxuyanda bir dəfə rastlaşdıq.

**–Nuru, deyəsən Əkbər müəllimin dərsini pozmusan,-** dedi.

***Təbitcə dərsdə şuluq salan deyildim. Ona görə də duruxdum.***

**- Maraqlı bir sual vermisən.**

Yadıma düşdü ki, "Tarixi materializm" dərsindəki əhvalata işarə vurur. Rəhmətlik Əkbər müəllim o zaman dosent idi. Dərsdə ictimai-iqtisadi formasiyalardan,- quldarlıq, feodalizm, kapitalizm, sosializm və kommunizmdən danışdı. Dərsin axırına yaxın sual verdim ki, bunlar bir-birinin ardınca gəlir, bəs kominizmdən sonra nə gələcəkdir? Əvvəlcə əsəbiləşən Əkbər müəllim sonra özünü ələ alaraq "Yaxşı, kominizm qurulan kimi gələrsən yanıma, nə olacağını deyəcəm" cavabını verdi. Qurban müəllim xoş bir təbəssümlə "yaxşı sualdır, amma cavab ondan da yaxşıdır" deməsini sanki dünən olubmuş kimi xatırlayıram".

Qurban müəllimin böyüyüb-başa çatdığı mahalın, kəndin inkişafında əvəzsiz xidmətlərindən də danışan N.Bayramov xatırlatdı ki, o, yay tətilində ailəsi ilə birgə kəndə gələr, davranışı, geyimi, insanlara münasibəti və dərin biliyi ilə kənd camaatına örnək olardı: "Nərimanlı kəndindən ilk namizədlik və doktorluq elmi dərəcəsi alan da Qurban Bayramov olmuşdu. Bu təsirin nəticəsi idi ki, ötən əsrin 88-ci ilinə qədər kiçik bir kənd olan Nərimanlıda 10-dan çox elmlər doktoru, 30-dan çox elmlər namizədi yetişdi və bu ənənə indi də davam edir. Öz adımdan, Qurban müəllimi sevən, onun şəxsiyyətinə hörmət edən bütün insanların adından ilk növbədə universitetimizin rəhbərliyinə, ictimai fənlər kafedrasına və gələn qonaqlara təşəkkür edirəm".

Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru, beynəlxalq icmalçı Yasin Qaraməmmədli Qurban müəllimdən söhbət açmağın da rahatlıq gətirdiyini söylədi: "O qədər şirinsöhbətli, əsəb sakitləşdirən xasiyyət sahibi idi ki, həmin auradan çıxmaq istəmirəm və deyirəm ki, onu təkcə göyçəlilər deyil, borçalılar da çox istəyirdilər".

Y.Qaraməmmədli çıxışında "sanki budda təliminin içindən çıxıb, bütün həyat əzablarından çıxış yolunu səbirdə, təmkində görən bir insan" kimi səciyyələndirdiyi filosofun aforizmlərinə xüsusi yer ayırdı. Qurban müəllimin tay-tuşlarına, sonrakı nəsillərə ötürdüyü estafetin yerə düşməməsini, yəni mənəvi bağların qırılmamasını arzuladı və Azərbaycan milli təfəkkürünün inkişafında xalq deyimlərinin, məsəllərin fəlsəfi tutumunu dərindən açmağa ehtiyac olduğunu söyləyərək Qurban Bayramov şəxsiyyətinin kafedra müəllimlərinin, onu tanıyanların hərəkətlərində və qəlbində həmişə yaşayacağına əminliyini bildirdi.

***"Böyük alim Qurban Bayramovun sadə və təvazökarlığı onun təbiətindən irəli gəlirdi"***- deyən qidalanma və kommunal gigiyena kafedrasının müdiri, dosent İbrahim Əhmədov qeyd etdi ki, o, qədim Azərbaycanın dilbər guşəsindən, zəhmətkeş xalqın arasından dünyanın hər keşməkeşini görüb gələn bir insan idi. El arasında geniş yayılan "filankəsi vəzifəyə qoysalar bilərəm necə adamdır" deyimini yəqin ki, hamı eşidib. Qurban müəllimin vəzifədə olduğu vaxt özünü vəzifədə olmadığı dövrdəkindən daha təvazökar və qayğıkeş aparması yalnız böyük şəxsiyyətlərə xas keyfiyyətdir ki, bu da hər kəsə nəsib olmur. İlk dəfə bizə dərs deyəndə tanıdığım, ictimai işlərlə bağlı təmasda olduğum Qurban müəllimin bircə dəfə səsinin yüksəldiyini görmədim. Onun qəlbində ancaq saflıq, mehribanlıq, qayğıkeşlik, insani xüsusiyyətlər və mərhəmət yuva salmışdı. Belə insanlar isə cəmiyyətimizin yaddaşında həmişə qalacaq.

Ümumi cərrahiyyə kafedrasının professoru Azər Şadlinski elmi və pedaqoji fəaliyyətinə yaxından bələd olduğu Qurban müəllimi həm də mehriban bir qonşu kimi xatırladı. 1972-ci ildə onunla eyni binada, eyni blokda ev aldığını, demək olar ki, hər gün görüşdüyünü dedi. Bütün qonşuların Qurban müəllimə böyük ehtiramla yanaşmasından məmnunluqla söhbət açan A.Şadlinski bildirdi ki, hələ müstəqilliyimizə qovuşmadığımız illərdə onun ictimai-siyasi proseslərə dair fikirləri hamımıza yeni və maraqlı göründü. İşi çətinə düşənlər, məsləhətə ehtiyacı olanlar da ilk növbədə Qurban müəllimə müraciət edərdilər. Tarixi hadisələrlə bağlı suallarımızı da ona ünvanlayar, aldığımız cavablardan razı qalardıq. Bəlkə bu səbəbdəndir ki, unudulmaz alimin o dövrdə yazdığı bütün əsərlər bu günümüzlə səsləşir.

Xatirəsi ehtiramla anılan alimin oğlu Qabil Bayramov atası haqqında deyilən xoş sözlərdən, eşitdiyi xatirələrdən qürur duyduğunu deyərək ailə üzvləri adından Azərbaycan Tibb Universitetinin rəhbərliyinə, ictimai fənlər kafedrasının kollektivinə və konfrans iştirakçılarına təşəkkürünü çatdırdı.

Böyük alimin xatirəsinə həsr olunmuş konfransı yekunlaşdıran S.Əliyev ictimai fənlər kafedrasının kollektivini Adil Nəcəfovun və Qurban Bayramovun ənənələrini qoruyub saxlamağa çağırdı. Kafedrada çalışanların da elə bu istəkdə olduğunu vurğulayaraq bir daha Qurban müəllimə Allahdan rəhmət, onun doğmalarına səbir dilədi.

**Arif MƏMMƏDLİ**

# İnsan orqanizminin fəaliyyətində tibbi astrologiyanın rolu

**Müasir həkimlərin adına and içdikləri Qədim Yunanıstanın məşhur həkimi Hippokrat iddia edirdi : “Astrologiyanı bilməyən həkim düzgün diaqnoz qoya və xəstəni düzgün müalicə edə bilməz. Dünyada hər şey vahid inkişaf qanununa tabedir.”**



Planetlərin Zodiakın müxtəlif bürclərində fokusa yığılmış görünməyən enerji axınlarının həmişə dəyişməkdə olan qarşılıqlı təsirləri bütün canlı orqanizmlərin vəziyyətlərinin dəyişilməsi-öz ardınca çəkib aparır. Bu dəyişikliklərlə tibbi astrologiya məşğul olur.

İnsan orqanizminin fəaliyyətinə tibbi astrologiyada Zodiak işarələrinin göy cisimləri və günəş sisteminin 10 planeti vasitəsi ilə təsir edir.

Tibbi astrologiyada planetlər çox vacib rol oynayır. Planetlərin dövrləri (günəş ətrafında fırlanma ərəfələri) xeyli proseslərin axma sürətini müəyyən edir və bu xəstəliyin müddətində özünü göstərir. Məsələn, Günəş ürək və şüurda idarə olunmayan düz əzələ toxumaları ilə əlaqəlidir, qan dövranının pozulması və ürəkkeçmə halları günəşin tipik xəstəlikləridir.

Ay mədə, limfa və qan plazması ilə əlaqədardır. Günəş kimi Ay da görmə orqanlarının formalaşmasında iştirak edir. Merkuri ağciyərlərdə, bronxlar və tənəffüs sistemi ilə əlaqəlidir. Titrəmə, qızdırma, qıcolma, nitq pozğunluğu, Merkurinin tipik xəstəlikləridir. Venera sidik-tənasül və ixracı sistemiylə bağlıdır. Sidik saxlaya bilməmək, sistit, nefrit, uremiya Veneranın tipik xəstəlikləridir. Mars baş – beynlə əlaqəlidir və qanda dəmir mübadiləsini idarə edir. Qızıl yel xəstəlikləri, sızanaqlar, irinli çibanlar, soyuqlama prosesləri Marsın tipik xəstəlikləridir.

Hepatit, xolestit, plevrit Yupiterin tipik xəstəlikləridir.

Saturn onurğa beynin və onun bütün funksiyaları ilə əlaqəlidir. Öd kisəsində daşlar, dişlərin xarab olması, bədəndə duz mübadiləsinin pozulması, radikulit və revmatizm Saturnun tipik xəstəlikləridir.

Uran əsəb hüceyrələrinin formalaşması ilə əlaqəlidir. Beynciyin funksiyasının pozulması Uranın tipik xəstəlikləridir.

Neptun vəzi toxuması və daxili sekresiya vəzilərinin əmələ gəlməsi ilə əlaqəlidir. Ruhi sarsıntılar, koma vəziyyəti Neptunun tipik xəstəlikləridir.

Pluton saçların, diş emalı, dırnaqların formalaşması ilə əlaqəlidir. Bədxassəli və xoşxassəli şişlər Plutonun səciyyəvi xəstəlikləridir.

Hazırda dünyanın müxtəlif yerlərində bir çox şəfa ocaqları var ki, onlar yalnız astroloji komplekslər baxımından xəstəlikləri müalicə edir. Getdikcə zənginləşən tibbi astrologiya çoxsaylı insanların köməyinə çatıb, onları bir sıra xəstəliklərdən xilas edib. Tibbi astrologiya sağlamlıqla bağlı uzunmüddətli fəaliyyətlərin planlaşdırılması üçün faydalıdır. Təbii olaraq ilin müxtəlif dövrlərində hər bir insanın sağlamlıq durumunda dəyişikliklərin baş verməsi mümkündür. Məhz tibbi astrologiya bu dəyişikliklər haqqında ayrı-ayrı bürclər altında doğulan insanlara əvvəlcədən xəbərdarlıq edir.

Hörmətli oxucular, unutmayın ki, sağlamlığı verən Allah, onu qoruyub saxlayan isə insan özüdür. Proqnozlardan asılı olmayaraq Allahın sağlamlıq əmanətinə xəyanət etməyin. Sağlamlığınızın qayğısına qalmağa hər zaman vaxt tapmağı bacarın.



**Nərgiz ZEYNALOVA,**
*Epidemiologiya kafedrasının əməkdaşı*

**Fevralın 25-də Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinin Baş idarə rəisi Vahid Qəhrəmanov ATU-da təhsil alan əcnəbi tələbələrlə görüşüb.**

# DÖVLƏT MİQRASİYA XİDMƏTİNİN BAŞ İDARƏ RƏİSİ ATU-DA TƏHSİL ALAN ƏCNƏBİ TƏLƏBƏLƏRLƏ GÖRÜŞÜB



O, ildə bir-iki dəfə təhsil müəssisələrində belə görüşlərin keçirildiyini vurğulayaraq əcnəbi tələbələrlə, universitetlərin əcnəbi tələbələrlə işləyən nümayəndələri ilə miqrasiya sahəsində mövcud qanunvericiliyin əsas tələbləri, əsasən də tələbələrin təhsil alması ilə bağlı müəyyən söhbətlər aparıldığını bildirib: “Məqsədimiz Respublikamıza digər ölkələrdən təhsil almaq və işləmək üçün gələn əcnəbilərin ölkədə olduğu müddətdə qeydiyyatı, yaşama icazələrinin alınması, həmin şəxslərin qanunvericiliklə nəzərdə tutulmuş müddəaları, normaları pozmaması və pozduqları halda hansı cərimələrlə üzləşə biləcəkləri haqqında sizləri məlumatlandırmaqdır. Ümumiyyətlə, Azərbaycana təhsil almaq üçün gələn əcnəbinin başqa məsələlər haqqında fikirləşmədən sonda yüksək ixtisaslı mütəxəssis kimi yetişməsi daim diqqət mərkəzində saxlanılır. Məhz buna görə hər bir təhsil müəssisəsində, universitetlərdə əcnəbilərlə bağlı ayrıca bölmələr fəaliyyət göstərir ki, tələbələrin vaxtı əlavə işlərə sərf olunmasın. Ölkəmizdə 10 gündən artıq yaşamaq istəyən əcnəbi, o cümlədən də tələbə Respublikamıza gəldiyi gündən olduğu yer üzrə qeydiyyata alınmalıdır. Prosedur qaydası isə çox sadədir. Pasportun yalnız şəkil olan və ölkə ərazisinə girişin Dövlət Sərhəd Xidməti tərəfindən təsdiq edilmiş səhifəsinin surəti tələb olunur. Azərbaycanda qanuni əsaslarla olduğunuz müddətdə sizə müvəqqəti yaşamaq üçün 1 il müddətinə icazə verilir. Vəsiqələrin alınmasına görə tələbələr tərəfindən ödənilən dövlət rüsumu digər əcnəbilərin dövlət rüsumundan fərqlidir. Ümumi qaydada 1 illik yaşamaq üçün icazə alan əcnəbilər 120 manat ödədiyi halda, tələbələr 40 manat civarında dövlət rüsumu ödəyirlər”.





İdarə rəisi Əmək Məcəlləsində və digər qanunlarda vətəndaşlığı olmayan şəxslərin təhsil aldıqları müddətdə əmək fəaliyyəti ilə məşğul olmalarının nəzərdə tutulmadığını söyləyib: “Yəni xarici ölkə vətəndaşı hansı məqsədlə gəlibsə, o məqsədlə də yaşamalıdır. Bəzən əmək fəaliyyətini təhsil haqqını ödəyə bilməmələri ilə əsaslandırırlar. İstənilən bəhanəyə baxmayaraq belə hallar aşkarlanarsa, müəyyən məbləğdə cərimələr tətbiq edilir. Əcnəbi vətəndaşı işə götürən hüquqi şəxs 30 000-35 000, sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslər isə 3000-5000 manat məbləğində cərimə oluna bilərlər. Yaşayış yeri, qeydiyyatla bağlı qanunun tələblərini pozan əcnəbilərin özləri isə 300-400 manat məbləğində cərimə ödəməlidirlər. Əgər son 3 il ərzində qanun pozuntuları 2 dəfə təkrarlanarsa həmin şəxslər ölkədən məcburi çıxarılır, onların ölkəyə girişinə məhdudiyyət qoyulur. Hər bir əcnəbi vətəndaş ölkəmizdə yaşamaq imkanını leqallaşdırmalıdır”.

V.Qəhrəmanov Azərbaycan vətəndaşı ilə qanuni nukah şəhadətnaməsi olan, qeydiyatdan keçən, lakin yaşamaq üçün icazə almayan əcnəbilərin də cərimələndiyini diqqətə çatdırıb: “Bu halda həmin şəxslərə cəriməni ödədikdən sonra 1 illik yaşamaq icazəsi verilə bilər. Şəxs cəriməni ödəməkdən imtina edərsə, ölkədən çıxarılır və ölkəyə girişinə 1 ildən 5 ilədək məhdudiyyət qoyulur. Bütün hallarda inzibati cəzadan söhbət gedir. Miqrant qaçaqmalçılığı istisna olmaqla cinayət məsuliyyəti nəzərdə tutulmamışdır”.

Azərbaycan Respublikasının ərazisində azı 2 il müvəqqəti əsaslarla yaşayan əcnəbinin sonradan Azərbaycanda daimi yaşamaq üçün müraciət etmək hüququ qazandığını bildirən idarə rəisi bu məsələnin tələbələrə aidiyyatı olmadığını deyib. Eyni zamanda universitet nümayəndələrinin missiyasını yüksək qiymətləndirərək onları əcnəbi tələbələrin vəkili adlandırıb.

O, görüş iştirakçılarının suallarını da cavablandıraraq rezidentura təhsili alan əcnəbilərin haqqı ödənilməyən əmək fəaliyyəti ilə məşğul olmasında heç bir qanun pozuntusu görmədiyini bildirib. Onu da əlavə edib ki, xaricdən 2-4 həftə müddətinə mühazirə deməyə gələn professor və müəllimlər iş icazəsi almaqdan azaddırlar. Çünki bu məsələlər səfirliklər səviyyəsində həll olunur.

Əcnəbi tələbələrin şəxsi problemləri ilə bağlı suallara da aydınlıq gətirilən görüşdə Dövlət Miqrasiya Xidmətinə təqdim olunan tibbi arayışların ATU-nun məşhur klinikaları tərəvindən verilməsinin mümkünlüyü məsələsinə də toxunulub.

ATU-nun beynəlxalq əlaqələr və xarici tələbələrlə iş üzrə prorektoru, dosent Rəhimə Qabulova idarə rəisi Vahid Qəhrəmanova əhatəli məlumat və izahlara görə təşəkkürünü bildirərək Azərbaycan Tibb Universiteti ilə Dövlət Miqrasiya Xidməti arasında işbirliyinin vacibliyini vurğulayıb.

Görüşdə ATU-nun xarici tələbələrlə iş üzrə dekanlığının və rezidentura şöbəsinin əməkdaşları, eləcə də Dövlət Miqrasiya Xidmətinin nümayəndələri iştirak ediblər.

**M.CAVADOV**

# Xocalı Soyqırımından bəhs edən sərgidə

**Azərbaycan Tibb Universitetində Xocalı Soyqırımının 23 illiyinə həsr olunmuş anım tədbiri çərçivəsində bu faciədən bəhs edən sərgiyə baxış keçirilib. ATU Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə baş tutan sərgidə 9 tələbənin çəkdiyi 50 rəsm əsəri nümayiş olunub.**



Sərgidə əsərləri nümayiş olunan tələbələr öz əl işləri ilə bağlı fikirlərini amu.edu.az saytına açıqlayıblar:

**Müalicə-profilaktika fakültəsinin II kurs tələbəsi Nərmin Quliyeva öz yaratdığı rəsmdə karandaşlardan istifadə etdiyini deyir:** *"Şəkillərimdə əsasən Xocalıda qətlə yetirilən şəhidlərimizin çəkdiyi əzabları canlandırmağa çalışmışam".*



**Hərbi tibb fakültəsinin VI kurs tələbəsi Q.Fəxri Xocalı faciəsinə həsr etdiyi rəsmdə qarışıq texnikadan-karandaş və kömürdən istifadə edib:** *"Bəzi şəkillərimi isə adi halda görünməyən işıq effekti ilə biruzə olunan formada çəkmişəm. Əslində, çox sözə ehtiyac yoxdu, şəkillər hər şeyi deyir".*



**Həkim-rezident Çərkəz Quliyeva bu əsəri yaradarkən mənəvi baxımdan çox əziyyət çəkib:** *"Hətta bu şəkilləri çəkərkən otura da bilmirdim. 3-4 gün əmək sərf elədim, amma əminəm ki, düşüncələrimi kağıza köçürə bildim".*

Tədbir iştirakçıları həmçinin, Xocalı faciəsinə həsr olunmuş sənədli filmi də izlədilər.

**ATU-nun mətbuat xidməti**

## Etibarsız sayılır

I müalicə-profilaktika fakültəsinin I kurs, $42^{b}$ qrup tələbəsi Əhmədov Məhəmmədəli Nazim oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin VI kurs, $208^{a}$ qrup tələbəsi Babazadə Orxan Cavanşir oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin I kurs, $35^{b}$ qrup tələbəsi Həmzəyeva Leyla Edqar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin II kurs, $295^{b}$ qrup tələbəsi Koprulu Ardal Shaheen Kamilin adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin II kurs, $887^{a}$ qrup tələbəsi (ingilis bölməsi) Ahmed Ahmed Azad oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin I kurs, $36^{b}$ qrup tələbəsi Ağazadə Nadir Ceyhun oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin hazırlıq şöbəsinin tələbəsi Baqeri Səmanə Haşım qızının adına Azərbaycan Respublikasında müvəqqəti yaşamağa görə verilmiş miqrasiya kartı itdiyi üçün etibarsız sayılır.

# Xocalı faciəsini əks etdirən flaşmob keçirilib

**Azərbaycan Tibb Universitetində Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşəbbüsü ilə Xocalı faciəsini əks etdirən flaşmob keçirilib.**



Flaşmobda 70-ə yaxın tələbə iştirak edib ki, onların da əksəriyyətini Hərbi tibb fakültəsinin tələbələri olub.

ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Elşad Novruzov bildirib ki, Xocalı soyqırımına dəstək kimi universitetin müsəlman ölkələrindən olan xarici tələbələri də bu flaşmobda iştirak ediblər: "Türkiyə, İran, Sudan, Fələstin və s. ölkələrdən olan tələbələr flaşmoba qatılıblar. Maraqlısı odur ki, bu flaşmobda iştirak edən tələbələrin əksəriyyəti 1995-ci il təvəllüdlü gənclərdir. Yəni, Xocalı qətliamı baş verdiyində onlar heç həyatda yox idilər. Və məhz bu insanların Xocalı faciəsini canlandırmaları bizim üçün çox maraqlı idi".



Qeyd edək ki, flaşmob güllə səsləri ilə başlayıb. Bu zaman tələbələr sanki güllə yarası almış kimi yerə yıxılıblar. Sonra qəmli musiqinin sədaları altında 26 fevral - Xocalı soyqırımı haqqında məlumat verilib.

**Zəkiyyə Elruh (Pənahova Zəkiyyə Həsən qızı) 1989-cu ildə Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki ATU) pediatriya fakültəsini bitirib. Hal-hazırda 39 saylı Şəhər Poliklinkasında işləyir. Beynəlxalq Homotoksikologiya Cəmiyyətinin üzvüdür, homeopatik müalicə ilə məşğul olur. 30 ilə yaxındır ki, bədii yaradıcılıqla da məşğuldur. "Vətəndən ayrılan ölüncə ağlar"(1996), "Bizdən aralı dağlar"(2000), "Könlümün harayları"(2004), "Payızda açan güllər"(2008),"Vida rəngli yarpaqlar" kitabları işıq üzü görüb. 1998-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. "Qızıl qələm" və "Fəzilət" media mükafatlarına layiq görülüb.**

### XOCALI AĞRILARI

Dərdi dərin Xocalı,
Nalən ərşə ucalı.
Hamı al-qan içində
Südəmərli –qocalı.

Qana susayan cəllad!
Qanı su sayan cəllad!
Körpə ahı yamandı,
Əl saxla, dayan, cəllad!

Bu şəhid ixtiyardı,
Onun nə suçu vardı?
Qanı suvaran torpaq
Doğulduğu diyardı...

Dağ düşüb çəndən ayrı,
Ellər vətəndən ayrı.
Hara üz tutub görən
Başlar bədəndən ayrı.

Düşmən hey qaraladı,
Sinəmi yaraladı.
Vətənimi böləmmir,
Cismimi paraladı.

Bu gözəlin dili yox,
Ayağı yox, əli yox.
Bir tanıyan tapılmaz,
Baş dərisiz, teli yox!

Bu başın eyni hanı?
Düşünən beyni hanı?
Dünyada yağımız tək
Cəlladın eyni hanı?

Eşit ozanı, Tanrı,
Yetir cəzanı, Tanrı!
Bəndələr qaralayır
Tanrı yazanı, Tanrı!

### ÖMRÜMÜ

Necə soraqlayım, arayım necə
İtkin diyarımda itən ömrümü?
Mən təbib olsam da yaza bilmərm
Ürək ağrıları ütən ömrümü.

Haçandı yanına mən dəyəmmədim,
Şah dağlar önündə baş əyəmmədim.
Mən toyda, düyündə xərcləyəmmədim
Kədər kölgə kimi güdən ömrümü.

Yenə o dağ ola, o aran ola,
Məni keçmişimə aparan ola.
Təzədən özümə qaytaran ola
Saralın qoynunda ötən ömrümü.

Son mənzil qabaqda ha çalış-tutaş,
Damcılar zərbindən yalanır bu daş.
Könül nəğmələrim yaşadaydı kaş
Bir gün əvvəl-axır bitən ömrümü.

Yağılar qoşunu yeridəcəkdi,
Cismimi şam kimi əridəcəkdi.
Bu gündən sonra da çürüdəcəkdi
Əsarətdə qalan VƏTƏN ömrümü!

# Dünya Səhiyyə Təşkilatının tütünlə mübarizə üzrə Çərçivə Konvensiyasının 10 ili tamam olur

**Dünya Səhiyyə Təşkilatının tütünlə mübarizə üzrə Çərçivə Konvensiyası 2005-ci il fevralın 27-də qüvvəyə minib. Bu illər ərzində Konvensiyaya qoşulan 180 dövlət siqaretçəkmə ilə mübarizə üzrə bir sıra uğurlu tədbirlər həyata keçiriblər. Bununla belə, DST və hökumətlərin qarşısında mühüm vəzifələr durur. Tütün sənayesinin məhdudlaşdırılmasında ortaya çıxan yeni problemlər hələ də öz həllini gözləyir.**

Konvensiya katibliyi rəhbərinin sözlərinə görə, sənədin qəbul olunduğu vaxtdan keçən 10 il ərzində əhəmiyyətli dəyişikliklər baş verib. Siqaret artıq sosial davranış normasına uyğun deyil. Tütün məmulatlarının reklam və sponsorluğuna ciddi şəkildə məhdudiyyət qoyulub. Dünyanın bir çox ölkələrində müəyyən yerlərdə tütündən istifadəni qadağan edən hüquqi normativ sənədlər qəbul olunub.

Konvensiya iştirakçılarının 80 faizi tütünə nəzarət sahəsində qanunvericiliyi möhkəmləndirib. Siqaret bağlamalarının qiyməti orta hesabla 150 faiz artıb, təxminən bu bağlamaların 75-85 faizində tütünün zərərləri təsvir edilib. İrlandiya, Yeni Zelandiya, Finlandiya kimi ölkələr və Sakit okean regionundakı ada dövlətlər siqaret çəkənlərin payının beş faizə qədər azaldılmasını qarşıya məqsəd qoyub.

DST ümid edir ki, Konvensiyanın yerinə yetirilməsi siqaret çəkən yeniyetmələrin sayını 30 faiz azaldacaq. Bu isə 2025-ci ildə qeyri-yoluxucu xəstəliklərdən ölüm hallarının 25 faiz azaldılmasına kömək edəcək.

Baş redaktor
**ELDAR İSMAYIL**

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
Mərdanov qardaşları - 100
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 4000
Sifariş: 216